# ELMİN ZİRVƏSİNƏ UCALAN 70 İL

**Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ**
*filologiya üzrə elmlər doktoru*

Xalqın tarixində şəxsiyyət kimi ucalmağın ən etibarlı yollarından biri insanın məşğul olduğu sənəti kamil bilməsidir. Bəşər sivilizasiyasında kitab mədəniyyəti, kitabxana işi böyük rol oynayır. Hələ XVI əsrdə U.Şekspirin müasiri, böyük ingilis filosofu Frensis Bekon demişdir: "Barıtın, kompasın və kitab çapının kəşfi bəşər sivilizasiyasında elə bir çevriliş yaratdı ki, nə göydə bir ulduz, nə yerdə bir sekta ondan kənarda qala bilmədi" Kitabı öyrənmək, kitaba xidmət millətə xidmətin ən nəcib yollarından biridir. Azərbaycanda bu nəcib işin aparıcı mütəxəsislərindən biri bu il anadan olmasının 70 ili tamam olmuş professor Xəlil İsmayılovdur.

Xəlil İsmayıl oğlu İsmayılov 1945-ci il iyulun 1-də Azərbaycanın füsünkar bölgələrindən Gədəbəy rayonunun Düz Rəsullu kəndində dünyaya gəlib.

1959-1963-cü illərdə orta təhsil alan Xəlil İsmayılov məktəbi müvəffəqiyyətlə başa vurub, 1967-ci ildə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinə daxil olub 1972-ci ildə həmin universiteti kitabxanaçı-biblioqraf ixtisası üzrə bitirib.

1974-cü ildə ADU-nun Kitabxanaşünaslıq kafedrasında laborant vəzifəsinə təyin olunan X.İsmayılov qısa zaman müddətində, müəllim və baş müəllim vəzifələrin də yüksəlmişdir.

Tələbəlik illərindən elmi tədqiqat işinə xüsusi həvəs göstərən X.İsmayılov 1976-1979-cu illərdə ADU-nun Kitabxanaşünaslıq kafedrasında əyani aspiranturada təhsil almışdır. 1984-cü ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində ixtisaslaşdırılmış müdafiə şurasında "Sovet hakimiyyəti illərində Azərbaycanda partiya kitabxanaları: tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Qeyd edək ki, sovet hakimiyyəti illərində bütün müttəfiq respublikalarda iri partiya kitabxanaları fəaliyyət göstərirdi ki, həmin kitabxanalar da o dövrdə hakimiyyətdə olan kommunist partiyasının siyasi ideologiyasını təbliğ etməklə yanaşı, həm də çoxsaylı mütəxəssis rəhbər işçilərə kitabxana-informasiya xidməti göstərirdilər. Həmin kitabxanalar ölkədə fəaliyyət göstərən ziyalıların kitabxana-informasiya təminatında təşkilatçı kimi mədəni təsisat rolunu oynayırdılar.

Məhz bu səbəbdən X.İsmayılovun namizədlik dissertasiyası mövzusu elmi aktuallıq kəsb etmiş və tədqiqatçı uzun illər bu sahədə araşdırma apararaq, partiya kitabxanalarının keçdiyi tarixi yolu hərtərəfli təhlil etmiş, onların iş təcrübələrini

ümumiləşdirmiş və topladığı zəngin elmi materiallar əsasında mükəmməl elmi əsər yazmağa nail olmuşdur.

Onu da vurğulayaq ki, Sovet İttifaqında kitabxanaçılıq sahəsində aparıcı elmi müəssisə sayılan Moskva Mədəniyyət və İncəsənət Universitetində həmin əsərin yüksək qiymətləndirilməsi həm azərbaycanlı gənc mütəxəssis Xəlil İsmayılovun, həm də Azərbaycan Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının mühüm nailiyyəti idi.

Elmi-pedaqoji sahədə uğurlar qazanan X.İsmayılov 1986-cı ildə ADU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti vəzifəsinə seçilmiş, 1990-1993-cü illərdə isə gənc alim kollektivin etimadını qazanaraq həmin kafedranın müdiri vəzifəsini layiqincə yerinə yetirmişdir.

1993-2012-ci illərdə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı vəzifəsində çalışan X.İsmayılov 25 il həmin fakültəyə rəhbərlik etmiş professor Abuzər Xələfov tərəfindən əsası qoyulmuş müsbət ənənələri Azərbaycan Respublikasında müstəqillik dövrünün tələblərinə uyğun olaraq daha da inkişaf etdirmiş, özünü universitetin tədris prosesini dərindən bilən pedaqoq və səriştəli təşkilatçı kimi tanıda bilmişdir.

Xəlil müəllimin bacarıqlı dekan kimi səmərəli fəaliyyəti, təşkilatçılıq bacarığı dəfələrlə BDU-nun rektorluğu tərəfindən yüksək qiymətləndirilmiş və 2009-cu ildə universitetin 90 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidentinin fərmanına əsasən Əməkdar mədəniyyət işçisi adına layiq görülmüşdür.

Xəlil müəllim 150-dən çox elmi əsərin, eləcə də kitabxanaşünaslıq elminin aktual problemlərinə və ölkədə kitabxana işinin daha da inkişaf etdirilməsi istiqamətində onlarla monoqrafiya, dərs vəsaiti və elmi məqalələrin müəllifidir.

2000-ci ildə Bakı Universiteti Nəşriyyatında işıq üzü görmüş "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi (1918-2000-ci illər; tarixi, müasir vəziyyəti və perspektivləri)" adlı monoqrafiya professor X.İsmayılovun ən sanballı elmi tədqiqat əsərlərindən biridir. Kitabda ilk dəfə olaraq respublikamızda metodik təminatın nəzəri və təcrübi inkişaf yolları tədqiqata cəlb edilmiş, kitabxanaçılıq işi üzrə ilk metodik mərkəzlərin meydana gəlməsi, ayrı-ayrı tarixi mərhələlərdə dövlət kütləvi kitabxana sistemi ilə yanaşı, Elmlər Akademiyası, Həmkarlat İttifaqı, tibb, texnika, kənd təsərrüfatı, təhsil və uşaq kitabxana şəbəkələrinin metodik təminatı zəngin arxiv materialları əsasında araşdırılmışdır.

Bu sanballı monoqrafiya müəllifin doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Belə ki, 15 may 2004-cü ildə Bakı Dövlət Universitetində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının iclasında Xəlil İsmayılov "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi (1918-2000-ci illər; tarixi, müasir vəziyyəti və perspektivləri)" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək tarix elmləri doktoru adına layiq görülmüşdür.



X.İsmayılovun doktorluq dissertasiyasının elmi yeniliyini səciyyələndirən xarakterik cəhətlər sırasında geniş faktik, statistik və arxiv materiallarının ilk dəfə elmi dövriyyəyə gətirilməsi əsasında Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin bütün inkişaf mərhələlərinin öyrənilib ümumiləşdirilməsi diqqəti cəlb edir.

Müəllif bu elmi-tədqiqat işində düzgün olaraq ölkədə kitabxana işinin metodik təminat sisteminin yeniləşmə konsepsiyasını, onun strateji istiqamətlərini: metodik təminat sisteminin məqsədli proqramlaşdırılması; elmi əsaslarının gücləndirilməsi; informasiya funksiyalarının genişlənməsi; kitabxana işçilərinin fasiləsi təhsil sistemində iştirakı; metodik təminat sisteminin struktur təkmilləşdirilməsi; metodistlərin statusu və peşə səviyyəsinin yüksəldilməsi kimi müəyyənləşdirilmişdir.

Professor X.İsmayılov öz təşəbbüsü ilə Azərbaycanda ilk dəfə olaraq 1997-ci ildən nəşr olunan ixtisas məcmuəsinin – "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübə jurnalının təsisçisi və baş redaktoru kimi də mühüm bir fəaliyyət sahəsi ilə məşğuldur. Məhz onun rəhbərliyi ilə jurnalın hər il 2 nömrəsi nəşr olunur ki, burada kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq, nəşriyyat işi və informatika elminin aktual problemləri ilə bağlı alim və mütəxəssislərin elmi məqalələri çap olunur.

X.İsmayılov həmçinin 1999-cu ildə yaradılmış Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosasiyasının prezidenti kimi çoxsahəli iş aparır. O, dünyanın bir çox ölkələrində keçirilən beynəlxalq konfranslarda Azərbaycan kitabxana ictimaiyyətini layiqincə təmsil etmiş, elm, təhsil, mədəniyyət və kitabxan-informasiya sahəsinin müxtəlif problemləri üzrə maraqlı məruzələrlə çıxış etmiş, həmin mövzularda aparılan müzakirələrdə fəallıq göstərmişdir.

Hər bir ziyalının kimliyi əsərində və əməlində təzahür edir. X.İsmayılov sözü və əməli bir olan şəxsiyyətdir. Mövlanə Cəlaləddin Rumi deyib: "Ya olduğun kimi görün, ya da gördüyün kimi ol!" Xəlil İsmayılov olduğu kimi görünən və göründuyu kimi yaşayan bütöv şəxsiyyət, alim və pedoqoqdur.

70 yaş insanı kamilliyə, müdrikliyə, ağsaqqallığa qovuşduran bir dövrdür. Bu dövrə öz zəhməti, intellektual zəkası ilə qədəm qoyan, gözəl insan, alim və ziyalı Xəlil İsmayılova uzun ömür, möhkəm cansağlığı və yeni-yeni elmi nailiyyətlər azru edirəm !